# SƏMƏD VURĞUNUN HƏYAT VƏ FƏALİYYƏTİNİN ƏSAS TARİXLƏRİ

***Azərbaycanın ilk Xalq şairi, dramaturq, tərcüməçi, ədəbiyyatşünas, 2 dəfə "Stalin" mükafatı laureatı və 2 dəfə "Lenin" ordeni laureatı, Azərbaycan Yazıçılar İttifaqının sədri , Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycanın Xarici Ölkələrlə Mədəni əlaqə Cəmiyyətinin sədri, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü və vitse-prezidenti Azərbaycan Elmlər Akademiyasının təsisçilərindən biri olan Səməd Yusif oğlu Vəkilov 21 mart 1906-cı ildə Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuşdur.***

| | |
|---|---|
| **1918–1924** | Qazax Müəllimlər Seminariyasında təhsil alıb və burada klassik ədəbiyyatı öyrənmişdir. |
| **1925** | İlk çap əsəri olan "Cavanlara xitab"şeiri Tiflisdə çıxan "Yeni fikir" qəzetində dərc edilmişdir. |
| **1929–1931** | İkinci Moskva Dövlət Universitetinin Ədəbiyyat fakültəsində təhsil almışdır. |
| **1930** | İlk şeirlər kitabı olan "Şairin andı" nəşr olunmuşdur. |
| **1934** | Məşhur "Azərbaycan" şeiri yazılıb ; Azərbaycan Yazıçılar İttifaqının təsisçilərindən və fəal üzvlərindən olmuşdur. |
| **1935** | Yaradıcılığının ən məhsuldar illərindən biri olmuşdur (7 poema və 100-ə yaxın şeir). |
| **1936** | "Lenin" ordeninə layiq görülmüşdür. |
| **1937** | Şairin şah əsəri sayılan "Vaqif" dramı yazılıb və tamaşaya qoyulmuşdur . |
| **1939** | "Şərəf nişanı" ordeninə layiq görülmüşdür. |
| **1941** | Ədəbiyyat sahəsindəki nailiyyətlərinə görə ilk dəfə SSRİ Dövlət (Stalin) mükafatına layiq görülüb; Azərbaycan Yazıçılar İttifaqının sədri seçilmişdir. |
| **1941-1945-ci illər** | "Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalı ilə təltif olunmuşdur. |
| **1942** | "Fərhad və Şirin" dramına görə ikinci dəfə Stalin mükafatı almışdır. |
| **1943** | "Azərbaycan SSR əməkdar incəsənət xadimi" fəxri adı ilə təltif olunmuşdur. |

| | |
|---|---|
| **1945** | Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilmişdir. |
| **1949** | “Əsərləri” Moskvada rus dilində çap olunmuşdur. |
| **1950-1951** | “Aygün” poemasını yazmşdır. |
| **1954-1955** | Üççildlik “Seçilmiş əsərləri” çap olunmuşdur. |
| **1954** | Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü (akademik) seçilmişdir . |
| **1956** | 2-ci dəfə "Lenin" ordeninə layiq görülmüşdür. |
| **23 yanvar 1956-cı il** | “Azərbaycanın Xalq şairi” fəxri adı verilmişdir. |
| **12 may 1956-cı il** | Anadan olmasının 50 illiyi və “Azərbaycanın Xalq şairi” fəxri adı təntənəli şəkildə qeyd olunmuşdur. |
| **27 may 1956-cı il** | Uzun sürən xəstəlikdən sonra Bakı şəhərində vəfat edib, Fəxri Xiyabanda dəfn olunmuşdur. |
| **1960** | Nizami adına Ədəbiyyat və Dil İnstitutu tərəfindən 6cildlik “Əsərləri” çap olunmuşdur. |
| **1961** | Bakıda abidəsinin açılışı olmuşdur. |
| **1966** | Anadan olmasının 60 illik yubileyi geniş qeyd edilib; Fəxri Xiyabanda qəbirüstü abidəsinin açılışı olmuşdur. |
| **1966** | Sumqayıt Mərkəzi Kitabxanası Səməd Vurğun adını daşıyır. |
| **1970** | “Komsomol” poeması əsasında “Yeddi oğul istərəm” bədii filmi çəkilmişdir. |
| **1974** | Kiyevdə açılan kitabxanada tanınmış Azərbaycan şairi Səməd Vurğunun adını əbədiləşdirmişdir |
| **1975** | Bakıda, Sovet ədəbiyyatı günlərində ölkənin ədəbi ictimaiyyətinin iştirakı ilə ev-muzeyinin təntənəli açılışı olmuşdur. |

| | |
|---|---|
| **1976** | Doğma kəndi Yuxarı Salahlıda ev-muzeyinin filialı "Səməd Vurğunun poeziya evi" yaradılmışdır. |
| **1976** | Azərbaycanın xalq şairi Səməd Vurğun anadan olmasının 70 illiyi münasibətilə xüsusi poçt markası dövriyyəyə buraxmışdır. |
| **1986** | Anadan olmasının 80 illiyinin keçirilməsi haqqında Azərbaycan KP MK qərar vermişdir.. |
| **1996** | Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Xalq şairi Səməd Vurğunun 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. |
| **2006** | Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Xalq şairi Səməd Vurğunun 100 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalamış, sərəncama əsasən şairin yubileyi Azərbaycanda və dost ölkələrdə geniş şəkildə qeyd olunmuşdur. |
| **2006** | Səməd Vurğunun 100 illiyi münasibətilə poçt markası buraxılmışdır. |
| **2012** | Prezident İlham Əliyev Ağstafada yenidən qurulmuş Səməd Vurğun adına mədəniyyət və istirahət parkının açılışında iştirak etmişdir. |
| **2012** | Yevlaxda Səməd Vurğun adına Mədəniyyət və İstirahət parkı istifadəyə verilmişdir. |
| **2025** | Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə Səməd Vurğun adına Yaradıcılıq evinin aaçılışı olmuşdur. |
| **2026** | Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Xalq şairi Səməd Vurğunun 120 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. |